# Qəbələ IV Beynəlxalq İncəsənət sərgisində

2010-cu ildən etibarən ənənəvi olaraq Qəbələdə Beynəlxalq İncəsənət sərgiləri keçirilir.





Bu sərgilərin keçirilməsinə həmin il Azərbaycan Mədəniyyət Fondu və SEBA (Seul-Bakı) Assosiasiyası tərəfindən birgə qərar verilib. 2010-cu ilin dekabr ayında keçirilən «Qəbələ I Beynəlxalq İncəsənət Sərgisində 14 ölkədən 81 rəssamın 156 əsəri, 2011-ci ilin dekabrında keçirilən «İncəsənət, Həyat və Torpaq» adlı Qəbələ II Beynəlxalq İncəsənət Sərgisində 18 ölkədən 116 rəssamın 214 əsəri, 2013-cü ilin mayında keçirilən ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Portretlərin melodiyası» adlı «Qəbələ III Beynəlxalq İncəsənət Sərgisində 23 ölkədən 165 rəssamın 284 əsəri nümayiş etdirilib.





Dekabrın 19-da Azərbaycan Mədəniyyət Fondu və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının birgə təşkilatçılığı ilə Heydər Əliyev Konqres Mərkəzində «Qəbələ IV Beynəlxalq İncəsənət Sərgisi»nin rəsmi açılış mərasimi keçirilmişdir. «İdman! Gözəllik!. Həyat!» adlı sərgi Azərbaycanın ev sahibliyi etdiyi və ilk dəfə keçirilən I Avropa oyunlarına həsr olunmuşdur.

Sərgidə dünyanın 19 ölkəsindən (Azərbaycan, Almaniya, Belarus, Çexiya, Estoniya, Gürcüstan, Koreya, Qazaxıstan, Latviya, Meksika, Monteneqro, Özbəkistan, Pakistan, Rusiya, Slovakiya, Türkiyə, Ukrayna, Yaponiya, Yunanıstan) 112 rəssamın iştirakı ilə 137 əsər nümayiş olundu.

Sərginin rəsmi açılışı mərasimində «Azərbaycan dövlətçiliyi və mədəniyyət» adlı sənədli film nümayiş olundu. Filmdə ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, incəsənətinə verdiyi dəyər, rəssamlıq və heykəltəraşlıq sənətinin inkişafı ilə bağlı gördüyü işlər, eyni zamanda Prezident İlham Əliyevin və Azərbaycanının birinci xanımı Mehriban Əliyevanın milli-mədəni irsimizin qorunub saxlanılması, mədəniyyətimizin, incəsənətimizin, musiqimizin dünyaya tanıdılması sahəsində xidmətləri öz əksini tapmışdır. Filmdə həmçinin SEBA Assosiasiyasının 10 illik fəaliyyəti dövründə həyata keçirdiyi tədbirlərdən də bəhs olundu.

Mərasimi açan SEBA Assosiasiyasının sədri Ruhəngiz Heydərova tədbirin böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır. O, dünyada məşhur olan rəssamların yenidən qədim mədəniyyət paytaxtı Qəbələyə toplaşmalarının qürurverici hadisə olduğunu bildirdi. Qeyd etdi ki, əsrarəngiz Qəbələ artıq fırça ustalarının da unudulmaz görüş yerinə, sonsuz sevgi ilə yaratdıqları əsərlərini tamaşaçılara təqdim etmək məkanına çevrilib. Çıxışına davam edən natiq bildirdi ki, bu gün Azərbaycan dünyanın sürətlə inkişaf edən dövlətlərindən biridir, eyni zamanda öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə də diqqət mərkəzindədir. Mənəvi zənginlik xalqımızın ən böyük sərvətidir. Bu mənəvi zənginliyə ulu öndər Heydər Əliyevin diqqət və qayğısı bu gün Prezident İlham Əliyevin qətiyyətli fəaliyyəti ilə uğurla davam etdirilir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın davamlı layihələri bu sahənin tərəqqisində mühüm rol oynayır.

Daha sonra çıxış edən Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, incəsənətinə verdiyi dəyər, rəssamlıq və heykəltəraşlıq sənətinin inkişafı ilə bağlı gördüyü işlərdən, Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın milli-mədəni irsimizin qorunub saxlanılması, mədəniyyətimizin, incəsənətimizin, musiqimizin dünyaya tanıdılması sahəsindəki xidmətlərindən danışdı. Daha sonra Fondun prezidenti Mehriban xanım Əliyevanın sərgi iştirakçılarına təbrik məktubunu oxudu.

Mərasimdə həmçinin Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov, Mədəniyyət və Turizm Nazirinin müavini Nazim Səmədov, Dövlət Rəssamlıq Akademiyasının rektoru, xalq rəssamı Ömər Eldarov, Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Kim Çanq Gyu və Rusiya Federal Məclisi Federasiya Şurasının sədr müavini İlyas Umaxanov çıxış etdilər.

Sərginin açılışını bildirən rəmzi qırmızı lenti kəsildi. Sərgiyə baxış keçirildi.

Sərginin açılışında fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, Milli Məclisin sədr müavini Bahar Muradova, respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Azərbaycanın, Rusiyanın və SSRİ-nin xalq rəssamı Tahir Salahov, dövlət və hökumət nümayəndələri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Açılış mərasiminin iştirakçıları arasında dünya şöhrətli aktyor və rejissor Stiven Siqal da olub.

Mərasimdə iştirak edən rəssamlara sertifikatlar verildi.

Qəbələ IV Beynəlxalq İncəsənət Sərgisi 2016-cı ilin yanvarın 17-dək davam edəcək.

* * *

Dekabrın 20-də sərgi iştirakçıları Heydər Əliyev Mərkəzində, "Beltmann" Piano Fabrikində, Qəbələ Atıcılıq kompleksində, Qəbələ Dövlət Tarix Bədii Qoruğunda, Qəbələ Arxeoloji Mərkəzində, «Tufandağ» Qış-yay Turizm İstirahət Kompleksində olmuşlar.

**Oqtay MƏMMƏDOV.**